2024

ASA AZƏRBAYCAN SIĞORTAÇILAR ASSOSİASİYASI

# Bülleten
# NOYABR

# Azərbaycan sığortaçıları COP29 tədbirlərində iştirak etdi

Cari ilin 11-22 noyabr tarixlərində Azərbaycanda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) keçirilib. 80-dən çox ölkənin dövlət və hökumət başçılarının iştirak etdiyi COP29-da ekoloji mühitin mühafizəsi, iqlim dəyişmələri nəticəsində yarana biləcək risklərin ortaya çıxaracağı təsirlərinin qarşısının alınması kimi qlobal aktuallıq kəsb edən mühüm istiqamətlər başlıca müzakirə mövzuları olub.

Bu mötəbər tədbirdə Azərbaycanın peşəkar sığorta bazarı iştirakçıları da aktiv şəkildə iştirak edib. Yerli sığortaçılar COP29 tədbirləri çərçivəsində təşkil olunmuş “Global Financial System: Scaling Up Financing for Climate Action” mövzusuna həsr olunan konfransda iştirak ediblər. Burada maliyyə sistemində davamlılıq, iqlim dəyişikliyi risklərinin sığorta sektoruna təsirləri və bu risklərin idarə olunmasında yeni yanaşmalar, yeni maliyyə mexanizmləri, iqlim layihələrinə investisiyaların artırılmasında sığorta sektorunun rolu əsas müzakirə mövzuları olub.

Bununla yanaşı, ASA-nın Müşahidə Şurasının sədri Ülviyyə Cabbarova COP29 tədbirləri çərçivəsində ölkəmizdə səfərdə olan Braziliya Sığortaçılar Konfederasiyasının prezidenti Dyogo Oliveira ilə görüşüb. Görüşdə ikitərəfli münasibətlərin perspektivləri, o cümlədən dayanıqlı maliyyə və sığorta bazarlarının inkişafı istiqamətində görülən işlər müzakirə olunub. Konfederasiyanın prezidenti ASA-nı 2025-ci ildə Braziliyada keçiriləcək COP30 tədbirləri çərçivəsində təşkil olunması planlaşdırılan "House of Insurance"-ə dəvət edib.






## ASA normadan artıq yağan yağışla bağlı mediaya açıqlama verdi



Açıqlamada deyilir: “Məlum olduğu kimi, cari ilin 21-22 oktyabr tarixlərində ölkə ərazisində qeydə alınan normadan artıq yağış nəticəsində bir sıra fəsadlar qeydə alınıb. Sözügedən hadisə nəticəsində sığortalanmış daşınmaz və daşınar əmlaklara, o cümlədən avtonəqliyyat vasitələrinə zərər dəyib. Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq yerli sığorta bazarı iştirakçılarından aldığımız bu günə olan son dəqiq məlumatlara görə, ümumilikdə 9 sığorta şirkətinə sığortalanmış daşınmaz əmlaklara dəymiş zərərlə bağlı ümumilikdə 122 müraciət, sığortalanmış avtonəqliyyat vasitələrinə dəymiş zərərə görə 27 müraciət, sığortalanmış daşınar əmlaklara dəymiş zərərlə bağlı isə cəmi 11 müraciət daxil olub. Hazırda hadisələr tənzimləmə və zərər qiymətləndirilməsi mərhələsindədir. Sığorta hadisəsi kimi tanınan hər bir hadisə üzrə sığorta ödənişlərinin həyata keçirilməsi nəzərdə tutulur”.

## Azərbaycan ilə Şimali Kipr Türk Cümhuriyyəti sığorta sahəsində əməkdaşlıq edəcək



Bununla əlaqədar ASA ilə Şimali Kipr Sığorta və Təkrarsığorta Şirkətləri Birliyi arasında memorandum imzalanıb.

Memoranduma əsasən, tərəflər arasında kadr, təcrübə və məlumat mübadiləsi, yeni ortaq məhsul strategiyalarının formalaşdırılması, iki ölkə arasında təkrarsığorta əlaqələrinin qurulması yönündə əməkdaşlıq istiqamətləri müəyyən olunub.

Bu əməkdaşlıq istiqamətləri arasında, Türk Dünyası Sığorta Birliyinin (TDSB) Azərbaycanın Şuşa şəhərində keçiriləcək I Assambleyasının təşkilatçılığında TDSB-də müşahidəçi təşkilat olan Şimali Kipr Sığorta və Təkrarsığorta Şirkətləri Birliyinin iştirakı da yer alıb.

Bununla da ASA-nın təşəbbüskarlığı və təşkilatçılığı ilə Azərbaycanın sığorta sahəsində əməkdaşlıq etdiyi ölkələrin sayı 9-a çatıb.

## ASA Şimali Kiprin cümhuriyyət günündə iştirak etdi



Azərbaycan Sığortaçılar Assosiasiyasının (ASA) İcraçı direktoru Elmar Mirsalayev Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Azərbaycan Respublikasındakı səfiri Ufuk Turganerin xüsusi dəvəti ilə ŞKTC-də cümhuriyyətin elan olunmasının 41-ci ildönümü münasibətilə təşkil edilmiş təntənəli yığıncaqda iştirak edib. Ziyafətdə icraçı direktor dövlət rəsmiləri və özəl sektor nümayəndələri ilə ikitərəfli görüşlər keçirib.

## 9 ayda təbii fəlakətlərdən yaranan sığorta zərər açıqlandı

Aon tərəfindən dərc edilən Qlobal Təbii Fəlakətlər Hesabatına görə, 2024-cü ilin doqquz ayında ümumi iqtisadi itkilər 258 milyard dolları ötüb. Eyni dövrdə sığortalanmış zərərlərin ən az 102 milyard dollara çatacağı ehtimal edilir. Hesabata görə, cari ilin 9 ayında 32-si Şimali Amerikada, 8-i Asiyada, 4-ü Avropa, Yaxın Şərq və Afirkada, 3-ü isə Cənubi Amerikada hər biri 1 milyard dollardan çox itkiyə səbəb olan 47 təbii fəlakət hadisəsi qeydə alınıb.



## Morningstar DBRS: İspaniyada baş verən sel fəlakətinin zərəri 1 milyard avrodan çox olacaq



Morningstar DBRS, insanlara, əmlaklara, nəqliyyat vasitələrinə və müəssisələrə, eləcə də regionun kənd təsərrüfatı sektoruna ciddi ziyan dəydiyini nəzərə alaraq, İspaniyanın cənubunda baş vermiş dağıdıcı daşqınların sığortalı zərərinin 1 milyard avrodan (1,1 milyard dollar) çox olacağını proqnozlaşdırır. Hesabatda qeyd olunur ki, sığortalanmış zərərlərin bir hissəsi İspaniya dövlətinin Fövqəladə Risk Sığortası Proqramı (CCS) tərəfindən qarşılanacaq. Bu kompensasiya əmlaklara və avtomobillərə dəyən zərəri də əhatə edəcək.

## TSB: Türkiyənin sığorta bazarı 2030-cu ilə qədər 2 dəfə böyüyəcək

Türkiyə Sığorta Birliyinin sədri Uğur Gülən bu barədə mediaya açıqlamasında bildirib. U.Gülən açıqlamada qeyd edib ki, Türkiyənin sığorta sektoru davamlı və dayanıqlı inkişaf tempini qorumaqla 2030-cu ildə 44,3 milyard dollar həcmində yığım təmin edə bilər ki, bununla da ümumi penetrasiya 4,8%-ə çatacaqdır.



azsığorta






*Sığorta növü: DƏİS*
*Sığorta hadisəsi: Yanğın*
*Ödənilmiş sığorta məbləği:* ***17 459,63 AZN***



Xalq Həyat

*Sığorta növü: İBHİS*
*Sığorta hadisəsi: Peşə əmək qabiliyyətinin itirilməsi*
*Ödənilmiş sığorta məbləği:* ***80 529,60 AZN***

Xalq Sığorta





*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği:* ***8 431 AZN***



QALA Həyat
Sığorta şirkəti

*Sığorta növü: İpoteka krediti üzrə borcalanların həyat sığortası*
*Sığorta hadisəsi: Ölüm halı*
*Ödənilmiş sığorta məbləği:* ***23 312, 43 AZN***



*Sığorta növü: Nəqliyyat vasitələrinin tam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği: **21 589,80 AZN***



*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Sığorta ödənişi*
*Ödənilmiş sığorta məbləği: **167 201,88 AZN***



*Sığorta növü: KASKO*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi*
*Ödənilmiş sığorta məbləği: **16 950 AZN***



*Sığorta növü: Həyatın yaşam sığortası*
*Sığorta hadisəsi: Yol-nəqliyyat hadisəsi nəticəsində ölüm hadisəsi*
*Ödənilmiş sığorta məbləği: **136 990,23 AZN***

## “Qala Sığorta” COP29 öncəsi regionlarda tədbirlər keçirib

Növbəti layihə Naxçıvanda “Yaşıl Dünya Naminə” adı altında Naxçıvan MR Təhsil Nazirliyi və Naxçıvan MR-in Mərkəzi Bankının təşəbbüsü ilə reallaşdı. Tədbir Naxçıvan şəhər 12 saylı məktəbdə şagirdlərə ekoloji problemlərin həlli istiqamətində maarifləndirmə sessiyası ilə başladı. Daha sonra tədbir ağacəkmə aksiyası ilə yekunlaşdı. Tədbirdə Qala Sığorta Şirkətinin Naxçıvandakı əməkdaşları və Naxçıvan Dövlət Universitetinin müəllimləri iştirak ediblər.





## “Qala Sığorta” növbəti sosial layihəni reallaşdırdı






“Qala Sığorta” növbəti sosial layihəsini reallaşdırıb. “ASAN Könüllüləri” təşkilatı ilə birgə təşkil olunan COP29 öncəsi “Yaşıl Dünyanı Yarat” adlı tədbir Bakı şəhərində baştutub. Layihənin məqsədi Azərbaycanın on iki universitet tələbələri tərəfindən regionun ekoloji problemlərinin həlli istiqamətində irəli sürülən çoxsaylı ideyaların dəyərləndirilməsi idi.

# “Xalq Həyat” Sığorta Şirkəti ASC - 6

“Xalq Həyat” Sığorta Şirkəti Açıq Səhmdar Cəmiyyəti 23 noyabr 2018-ci ildə dövlət qeydiyyatına alınmış, 15 mart 2019-cu il tarixdə isə Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən “Xalq Həyat” Sığorta Şirkəti ASC-yə sığorta fəaliyyətinin həyata keçirilməsinə dair 5 illik lisenziya verilmişdir.

Nizamnamə kapitalı 15 milyon manat təşkil edir və səhmlərinin 100 faizi “Xalq Sığorta” ASC-yə məxsusdur.

“Xalq Həyat” Sığorta Şirkəti ASC həyat sığortası sahəsində geniş spektr üzrə xidmətlər göstərir. Bu, həm icbari sığorta, həmçinin könüllü sığorta növlərinə aiddir. Cəmiyyət 08 may 2019-cu il tarixindən etibarən "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta" növünü həyata keçirmək üçün “İcbari Sığorta Bürosu” Hüquqi Şəxslərin İttifaqının iştirakçı sığortaçıların reyestrinə daxil edilib.

Cəmiyyət Azərbaycan Respublikasının İpoteka və Kredit Zəmanət Fondunun müvəkkil sığortaçıların reyestrinə daxil edilib, habelə Azərbaycan Sığortaçılar Assosiasiyasının və İcbari Sığorta Bürosunun üzvüdür.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “Xalq Həyat” Sığorta Şirkəti ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.

Xalq Həyat



# “PAŞA Həyat Sığorta” ASC – 14

“PAŞA Holding” şirkətlər qrupuna daxil olan “PAŞA Həyat” 24.11.2010-cu il tarixdə Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 14.02.2011-ci il tarixli lisenziyası əsasında həyat sığortası sahəsi üzrə xidmətlərin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərir.

Təsis olunduğu zaman “PAŞA Həyat”-ın nizamnamə kapitalı 7.000.000 (yeddi milyon) AZN təşkil edirdisə, fəaliyyətinin ilk 3 ilinin nəticəsi olaraq Cəmiyyətin nizamnamə kapitalı 5,75 dəfə artırılaraq, hazırda 40.250.000 (qırx milyon iki yüz əlli min) manata çatdırılmışdır.

“PAŞA Həyat” dinamik inkişaf edən universal həyat sığortası şirkəti olmaqla hazırda Azərbaycan Respublikasının Sığorta qanunvericiliyi ilə nəzərdə tutulmuş həyat sığortası sinfinə aid olan bütün növ məhsulları müştərilərinə təqdim edir.

“PAŞA Həyat” Azərbaycan Sığortaçılar Assosiasiyasının Müşahidə Şurasının üzvü və İcbari Sığorta Bürosunun iştirakçısıdır.

Azərbaycan Sığortaçılar Assosiasiyası olaraq “PAŞA Həyat Sığorta” ASC-nin rəhbərliyinə və kollektivinə uğurlar arzulayırıq.

PAŞA
Həyat



ASA

AZƏRBAYCAN
**SIĞORTAÇILAR**
ASSOSİASİYASI

Index: AZ1000, Baku, Azerbaijan
Ünvan: Mikayıl Useynov 63
Tel\fax: (+994 12) 492 80 45
E-mail:office@asa.az

www.asa.az